**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İBTİDAİ SİNİFLƏRDƏ SİNONİMLƏR VƏ ANTONİMLƏR ÜZƏRİNDƏ İŞ ŞAGİRDLƏRİN LÜĞƏT EHTİYATINI ZƏNGİNLƏŞDİRMƏYİN VASİTƏSİ KİMİ

İxtisas: 5801.01–Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası
(Azərbaycan dilinin tədrisi metodikası)

Elm sahəsi: Pedaqogika

İddiaçı**: Nərmin İsa qızı Qasımova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Müasir Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Filologiya elmləri doktoru, professor
**Fikrət Ramazan oğlu Xalıqov**

Rəsmi opponentlər: Filologiya elmləri doktoru, professor
**İsmayıl Oruc oğlu Məmmədli**

Pedaqogika elmləri doktoru, dosent
**Nabat Beydulla qızı Cəfərova**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Asif Xatabala oğlu Hacıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurası

Dissertasiya Şurasının sədri: Tarix elmləri doktoru, professor
**Cəfər Məmməd oğlu Cəfərov**

Dissertasiya Şurasının elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Mələk Əlislam qızı Zamanova**

Elmi seminarın sədri: Pedaqogika elmləri doktoru, dosent
**Vaqif Tapdıq oğlu Qurbanov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Mütərəqqi pedaqoji-psixoloji ideyalara və qabaqcıl təcrübəyə istinadən aparılan islahatlar və dövlət dili haqqında qanun Azərbaycan təhsil sistemində yeni məzmun və struktur baxımından əsaslı dəyişikliklər edilməsi üçün möhkəm zəmin yaratdı[1]. Ümumtəhsil məktəblərində daha qabarıq şəkildə əksini tapan bu yeniləşmə yetişməkdə olan gənc nəslin milli və ümumbəşəri dəyərlər ruhunda tərbiyələnməsinə, onlarda sürətlə dəyişən həyat hadisələrinə obyektiv qiymət vermək bacarıqlarının formalaşmasına xidmət edən bir sistemin seçilməsini təmin etmiş oldu.

Təhsilin məzmunu inteqrativ qurulduğu və interaktiv təlim metodlarına əsaslandığı üçün yenidir. İndi təlim prosesi şagirdlərin qarşılıqlı fəallığına əsaslanır. Bu fəallıq nitq inkişafı ilə təfəkkür inkişafını təmin etməyə hesablanmışdır.

Məlumdur ki, dünyada elmi-texniki tərəqqi ictimai inkişafı sürətlə irəli aparır. Buna baxmayaraq, hələ də şagirdləri elmi bilik, bacarıq və vərdişlərə yiyələndirmə metodlarında çətinliklər və problemlər qalmaqdadır. Təhsilin daima artan tələblərə cavab verməsi məqsədilə onun məzmunu və metodlarında təkmilləşmələr aparmaq inkişafı sürətləndirən mühüm amillərdəndir. Azərbaycanda təhsilə indi elmin, mədəniyyətin, cəmiyyətin, millətin inkişafı, dövlətçiliyin möhkəmləndirilməsi vasitəsi kimi baxılır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev əvvəlcə təhsildə islahatlar aparılmasına, daha sonra onun müasir sisteminin yaradılması ideyasını irəli sürərkən və strateji istiqamətlər verərkən bu sözləri demişdir: *“Təhsil millətin gələcəyidir”, “Təhsil mədəniyyətin inkişafının lokomatividir”, “Mədəniyyəti yüksək olan xalq həmişə inkişaf edəcək, həmişə irəli gedəcək”.*

Təhsildə müəllimin roluna dahiyanə qiymət verən Ümummilli liderimizin bu sözləri indi şüarlara çevrilmişdir: *“Mən yer üzərində müəllim adından yüksək və şərəfli ad tanımıram”.*

[1]Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu//Azərbaycan dili və ədəbiyyatı tədrisi. –Bakı: –2003. №1, –s. 2-6.

Müşahidələr göstərir ki, 2008-ci ildən başlayaraq I-IV siniflər üzrə Azərbaycan dili dərslikləri, habelə metodik vəsaitlərlə yeni fənn standartlarının reallaşdırılması həyata keçirilir. Dörd məzmun xətti üzrə standartlarda şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi ilə onların nitq və təfəkkürünün qarşılıqlı şəkildə inkişaf etdirilməsi və dünyagörüşünün genişləndirilməsi prosesi baş verir.

Ənənəvi dərsliklərdən fərqli olaraq, yeni Azərbaycan dili dərslikləri ədəbi dilin qayda-qanunlarını ibtidai səviyyədə realizə edir.

Azərbaycan dili kurikulumu əsasında hazırlanmış dərsliklərdə mətn üzrə dinləyib-anlama, danışma, oxu, yazı, eyni zamanda dil bacarıqları üzrə işlər nitqi zənginləşdirməyə əsas verir[2]. Ümumiyyətlə, Azərbaycan dili fənninin tədrisində başlıca məqsəd şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək, idrak qabiliyyətini zənginləşdirmək, yazı və nitq bacarıqlarını formalaşdırmaqdan ibarətdir. Təlim nəticələri də məhz bu xətti reallaşdırmağı nəzərdə tutur, habelə qiymətləndirmə də onun əsasında aparılır ki, şagird son nəticədə analoji mətn yarada bilsin[3].

Yeni fənn kurikulumlarının 15 il ərzində tətbiqi, bu məsələyə tam aydınlıq gətirmişdir. Belə ki, dörd məzmun xətti üzrə qurulan Azərbaycan dili tədrisi nəticəyönümlü olmuşdur.

Mətn üzərində sinonim və antonimlər üzrə leksik semantizasiyalar, şagirdləri tədqiqata qoşmaqla müntəzəm aparıldıqda və bu iş sistematik qurulduqda aşağıdakılara nail olmaq mümkündür:

– şagirdlərin biliyi artar;
– bacarığı (tətbiqetmə) inkişaf edər;
– məntiqi təfəkkürü yüksələr;
– dünyagörüşü genişlənər;
– rabitəsiz və rabitəli nitqi zənginləşər, inkişaf edər və s.

Şagirdlərin sinonim və antonimlərlə bağlı zəruri bilik, bacarıq və vərdişlərə yiyələnməklə əlaqədar nailiyyətləri kurikulum tələblərini heç də həmişə ödəmir. Onlar bir sıra hallarda standartları müstəqil şəkildə reallaşdıra bilmirlər. Müşahidələrimiz və təhlilimiz

---

[2]Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları / red. Y.Kərimov –Bakı: Təhsil, –2008. –480 s.

[3]Abbasov, Ə.M. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri // –Bakı: Kurikulum, –2008. №1, –s. 12-16

göstərir ki, bu işdə gözlənilən nəticə son nəticəyə çevrilmir ki, bunun da obyektiv və subyektiv səbəblərinin araşdırılmasına ehtiyac var. Obyektiv səbəb odur ki, metodikamızda mətnlər üzərində sinonim və antonimlərə görə təhlilin çalışmalar sisteminə əsasən salınmaması və ya iş üzrə metodik vəsaitdə didaktik tövsiyələrin olmamasıdırsa, subyektiv səbəb müəllimlərin bu işə ayrılan mövcud imkanlardan da səmərəli istifadəyə lazımi diqqət yetirməməsi ilə əlaqədardır.

Azərbaycan dili təliminin rabitəli mətn üzrə qurulması, habelə ümumi təlim nəticələri, dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları üzrə məzmun xətlərinin və bunların da hər birinə görə reallaşdırılan standartların nəzəri və təcrübi aspektlərinin təhlili göstərir ki, bu işdə strateji xətti müəyyən edən rabitəli mətndir və son nəticə də şagirdlərin söz ehtiyatını zənginləşdirməklə onların yaradacağı analoji mətnə görə qiymətləndirilməlidir.

Belə bir sistem nitq inkişafına geniş imkanlar açan təlim strategiyasıdır. Nitq inkişafı mədəni nitqə inteqrasiyaya hesablanan yaradıcı, inkişafetdirici təlimdir və lüğət ehtiyatının zənginləşdirilməsi burada aparıcı mərhələ hesab olunur. Yeni metodologiya və texnoloji xətt də ibtidai təhsildə Azərbaycan dilindən lüğət ehtiyatının zənginləşdirilməsinə geniş qapılar açır, lakin bəzən gənc müəllim və metodistlər hələ də bu işin nəzəriyyəsinə yiyələnməkdə çətinlik çəkirlər. Bunlara nələr daxildir?

1) Müəllimlərin təsəvvüründə lüğət işinin yalnız orfoqramlar üzərində aparılmasından ibarət olması;

2) Müəllimlərin leksik-frazemik vahidlərin tədrisində şagirdlərin nitqinin şifahi və yazılı yollarla zənginləşdirmək təcrübəsinə bələd olmamaları;

3) Müəllimlərə verilən tövsiyələrin nəzəri-praktik xarakter daşımaması və s.

Əlbəttə, dilçi və metodistlərimiz leksikologiyanın tədrisi, habelə lüğət ehtiyatının leksik semantizasiyalarından vasitə kimi istifadə ilə zənginləşdirilməsi, ümumilikdə isə nitq inkişafı metodologiyası ilə bağlı az iş görməmişlər. Bu mənada dilçi alimlərdən Səlim Cəfərov, Əbdüləzəl Dəmirçizadə, habelə metodistlərdən Əziz Əfəndizadə, Yəhya Kərimov, Ağarəhim Rəhimov, Bəşir Əhmədov, Həsən Balıyev, Sevindik Vəliyev, Asif Hacıyev, Vaqif Qurbanov, Nabat Cəfərova və

başqalarının xidmətlərini qeyd etməliyik. İbtidai təhsil pilləsində sinonim və antonimlərin üzərində aparılan işlə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi məsələsi həmişə gündəmdə olsa da, bu işin rabitəli nitqə çevrilməsinə qədər aparılması bu qədər aktuallıq kəsb etməmişdir. Belə ki, fikir versək Y.Kərimovun "İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları" adlı monoqrafiyasında[4] sinonim və antonimlərlə bağlı konkret təhlilləri bizim bu fikrimizi təsdiq edə bilər. Lüğət işi rabitəli nitqlə tamamlanmalıdır.

A.Rəhimovun "Ana dili tədrisi metodikası" monoqrafiyasında da leksik vahidlərin tədrisi məsələlərinə geniş yer verilmiş və qabaqcıl təcrübəyə yeni istiqamətlər təqdim edilmişdir[5]. Biz həmin tədqiqat işlərini yüksək qiymətləndirir və yeni tədqiqatlara yol açdığını qeyd etməklə bərabər, təlimin yuxarı pilləsi üzrə S.Vəliyevin namizədlik dissertasiyasının sinonimikanın tədrisi məsələsinə həsr olunmasını çox qiymətli hesab edirik[6]. Lakin kurikulum tələblərinə görə sinonim və antonimlərin sözlərlə şərhindən daha çox mətn, cümlə konteksində şərhi əsas götürülməlidir. Adlarını hörmətlə yad etdiyimiz alimlərin əsərlərində sinonim və antonimlərin linqvistik xüsusiyyətləri açılmaqla yanaşı, öyrədilməsinin şagirdlər tərəfindən maraqla qarşılanmasından, hətta "təfəkkür məktəbi" elan olunmuş təhsildə nitq inkişafina mühüm töhfə verdiyindən bəhs olunur[7]. Əlbəttə, nitq zənginliyi strategiyası yeni məzmun, yeni yanaşma tələb etdiyindən, ibtidai təhsildə bu mövzuların nəzəri praktik cəhətdən optimal öyrədilməsi, hər bir məzmun xəttinin təlim standartlarında nəzərdə tutulması və lüğət ehtiyatının zənginləşdirilməsi sisteminin mükəmməl əsaslar üzərində cümlə-mətn səviyyəsində qurulmasından, habelə nitq inkişafında yüksək zirvəyə çevrilməsindən danışa bilmirik. *"Sözlərin*

---

[4]Kərimov, Y.Ş. İbtidai siniflərdə Azərbaycan dili dərslərində lüğət işinin əsasları / Y.Ş.Kərimov. – Bakı: Maarif, –1978. –218 s.

[5]Rəhimov, A.N. Ana dilinin tədrisi metodikası / A.N.Rəhimov. –Bakı: Nurlan, –2003. –408 s.

[6]Vəliyev, S.İ. Azərbaycan dili tədrisində sinonimika üzrə işlərin sistemi (IV-VIII siniflər): / pedaqoji elmlər namizədi alimlik dərəcəsi almaq üçün namizədlik dissertasiyası /–Bakı, 1985. –193 s.

[7]Vəliyev, S.İ. Sinonimika üzrə üslubiyyat işlərinin təşkili // – Bakı: Azərbaycan dili və ədəbiyyatı tədrisi məcmuəsi, –1987. №3,

*məna dəyişmələri, başqa anlamda işlənməsi və ümumən leksik-semantik inkişafı müxtəlif dildaxili və dilxarici (xüsusilə ikinci amilin) amillərin təsiri ilə baş verir və müxtəlif növdə özünü göstərir. Sözlərin leksik-semantik inkişafı da dilin başqa vahidlərinin inkişafı kimi müəyyən qanunauyğunluqlarla müşayiət olunur"*[8].

Təhlillərimiz göstərir ki, ibtidai təhsildə Azərbaycan dilindən leksik-semantik söz qruplarının tədrisi baxımından yeni sistemini yaratmaq imkanları mümkün olsa da, şagirdlərin lüğət ehtiyatı Azərbaycan dili fənn kurikulumunun tələblərinə tam cavab vermir və bu, bizə sinonim və antonimlərin tədrisi ilə bağlı qeyd etdiyimiz ideyalar əsasında tədqiqatlar aparmağı zəruri edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ibtidai siniflərdə Azərbaycan dilinin təlimi prosesidir. Tədqiqatın predmeti isə sinonim və antonimlər vasitəsilə təlim prosesində şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi ibtidai siniflərdə Azərbaycan dilindən sinonim və antonimlərin tədrisi ilə bağlı kurikulum tələblərinin, o cümlədən məzmun standartlarının, dərsliklərin və metodik vəsaitlər, məktəbdə vəziyyətin öyrənilib təhlil edilməsi, habelə seçilən interaktiv metodların didaktik imkanlarının nəzərə alınması ilə lüğət ehtiyatının zənginləşdirilməsi üzrə yeni optimal sistemin yaradılması, eksperimental sınaqlardan keçirilib yeni müddəaların meydana çıxarılmasından ibarətdir.

Tədqiqatın qarşısında qoyulan vəzifələr isə əsasən aşağıdakılardan ibarətdir:

1) Mövcud ədəbiyyatlarda leksik vahidlərin tədrisi metodikasının elmi-nəzəri əsaslarını öyrənib təhlil etmək;
2) Sinonim və antonimlərin tədrisi vəziyyətini kurikulum tələbləri baxımından təhlil etmək;
3) Mövzu baxımından məsələnin qabaqcıl təcrübəyə əsaslanan yeni didaktik imkanlarını aşkara çıxarmaq;
4) Sinonim və antonimlərin tədrisi metodlarının təhlilini vermək;

---

[8] Məmmədov, Y.Q. Azərbaycan dilində sözlərin leksik-semantik inkişafı / Y.Q.Məmmədov. –Bakı: APİ nəşriyyatı, –1987. – s. 6

5) Dərsliklərin mövzu baxımından təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq;

6) Mövzu baxımından metodikaların təkmilləşdirilməsi ilə bağlı tövsiyələr hazırlamaq və s.

**Tədqiqatın metodları.** Tədqiqatın gedişi prosesində aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

1) Nəzəri təhlil. Problemlə bağlı elmi, metodik ədəbiyyatın araşdırılması; dilçi və metodist alimlərin fikirlərinin təhlil edilməsi;

2) Müşahidə. 10 məktəbin ibtidai siniflərində 300-ə qədər şagirdin lüğət ehtiyatının səviyyəsi, 20 müəllimin bu sahədə təcrübəsinin müşahidə edilməsi;

3) Müsahibə. Problemlə bağlı 40 nəfər ibtidai sinif müəllimi ilə söhbətlərin aparılması;

4) Pedaqoji eksperiment. Tədqiqatın məqsədi, vəzifələrinə dair 2012-2020-ci illərdə respublikanın müxtəlif şəhər və kənd məktəblərində pedaqoji eksperimentlər də aparılmışdır. Bu eksperimentlər Bakı şəhərinin 7, 23,49, 82, 99, 160, 193, 244, 283 və Şuşa şəhərinin 2, 4 saylı məcburi köçkün məktəblərində keçirilmişdir.

Bundan başqa, tədqiqat işində bir sıra yeni təlim texnologiyaları və metodlarından, o cümlədən, şagirdləri mətnlər üzərində kütləvi və fərdi şəkildə sinonim və antonim axtarışlarına qoşma, şifahi və yazılı təqdimat, müzakirə (dialoq-diskussiya), inteqrativ nəticələrlə çıxışetmə, liderlərin və ya qrupun cavablarını qiymətləndirmə və s. formalarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** aşağıdakılardan ibarətdir:

– Azərbaycan dili dərslərində şagirdlərin sinonim və antonimlərlə bağlı lüğət ehtiyatını zənginləşdirməyin geniş imkanları var; həmin imkanların bir çoxu metodik vəsaitlərdə göstərilsə də, bir çoxundan rabitəli mətn üzərində motivasiya mərhələsində söz və ifadələrin mənasının açılması üçün istifadə olunur;

– Rabitəli mətn üzrə suallara cavab, oxu və yazı məşqləri şagirdlərin sinonim və antonimlərdən istifadə etmək bacarıqlarını inkişaf etdirir;

– Mətn üzrə sinonim və antonim məqsədli çalışmalar şagirdlərdə tədqiqatçılıq meyilləri, təqdimatetmə bacarıqları formalaşdırır;

– Dil qaydaları üzrə aparılan işlərdə sinonim və antonimlərə dair imkanların nəzərə alınması şagirdlərin lüğət ehtiyatını, şifahi və yazılı nitqini zənginləşdirir və nəticə etibarilə nitq inkişafı metodikası təkmilləşdirilir.

**Tədqiqatın elmi yeniliyi**. İbtidai siniflər üzrə sinonimlər və antonimlərin tədrisində şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək imkanlarının kurikulum tələblərinə uyğunlaşdırılması, habelə mövcud metodikalarda leksik vahidlərə dair işlərin sferasının praktik cəhətdən daha da genişləndirilməsidir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti**. Tədqiqat nəticəsində sinonim və antonimlərin tədrisi sistemində şagirdlərin lüğət ehtiyatını sözlər, cümlələr və mətnlərlə zənginləşdirmək, habelə onların rabitəli nitqini inkişaf etdirməklə bağlı yeni mülahizələr nəzəri cəhətdən elmi ümumiləşdirmələr şəklinə salınmışdır. Tədqiqatdan alınan nəticələr aşağıda qeyd olunan istiqamətlərdə tətbiqi əhəmiyyət daşıyır:

– ibtidai siniflərin Azərbaycan dili fənn kurikulumunun təkmilləşdirilməsində;

– I-IV siniflər üçün "Azərbaycan dili" dərsliklərinə dair "Metodik vəsaitlərin" üzərində təkmilləşdirilmələr və redaktələr aparılmasında;

– dərsliklərin metodik ideyalarla zənginləşdirilməsində və təkmilləşdirilməsində;

– müəllimin nitq inkişafı metodikasına dair nəzəri səviyyəsinə və təcrübəsinin təkmilləşdirilməsində;

– nitq inkişafı üzrə metodik istiqamətin zənginləşdirilməsində;

– ibtidai sinif müəllimlərinin Azərbaycan dilindən fənn kurikulumu və dərsliklərlə yaradıcı işləmək səriştələrinin artırılması və yenidən qurulmasında və s.

**İşin aprobasiyası və tətbiqi.** Aparılan elmi-nəzəri araşdırmalar və eksperimental tədqiqatların başlıca müddəaları haqqında seminarlarda, elmi-praktik konfranslarda çıxış edilmiş, pedaqoji mətbuatda dərc olunmuşdur. Pedaqoji tədqiqatın nəticələri bir neçə eksperiment və sınaq dərsləri vasitəsilə yoxlandıqdan sonra məzmununda lazımi korrektələr edilmiş, elmi-metodik cəhətdən təkmilləşdirilmiş və sinif müəllimləri qarşısında məruzə olunmuşdur. Mövzu ilə əlaqədar 9 məqalə və 3 tezis nəşr edilmişdir. ibarətdir. Giriş – 8 səhifə, 13830 işarə, I Fəsil – 59 səhifə, 95426 işarə, II Fəsil – 35

səhifə, 55467, III Fəsil – 23 səhifə, 32668 işarə, nəticə – 3 səhifə, 5221 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı 10 səhifə olmaqla dissertasiya 137 səhifə, 204065 işarədən ibarətdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Müasir Azərbaycan dili kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, on bir paraqraf, iki bənd, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından 204065 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **"Giriş"** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi əsaslandırılır, obyekt və predmeti, eləcə də məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat təqdim edilir.

Dissertasiyanın **"Tədqiqatın ümumi məsələləri"** adlanan birinci fəsli *"Azərbaycan dilində sinonim və antonimlərin linqvistik xüsusiyyətləri və onların tədrisi məsələləri", "Problemlə bağlı fənn kurikulumunun tələbləri", "Mövzu baxımından I-IV sinif "Azərbaycan dili" dərsliklərinin təhlili", "Problemlə bağlı məktəbdə vəziyyət", "Sinonim və antonimlərlə aparılan işin taktiki məsələləri"* adlı beş paraqrafdan ibarətdir.

Birinci fəslin *"Azərbaycan dilində sinonim və antonimlərin linqvistik xüsusiyyətləri və onların tədrisi məsələləri"* adlı birinci paraqrafında sinonim və antonimlərin linqvistik xüsusiyyətlərinin ibtidai təhsildə tədrisinin əhəmiyyətindən bəhs edilərkən kurikulum tələbləri verilir və standartların təcrübədə reallaşdırılması səviyyəsinin təhlili əsasında problemlər müəyyənləşdirilir.

*"Problemlə bağlı fənn kurikulumunun tələbləri"* adlı ikinci paraqrafında aşağıdakı məsələlərə aydınlıq gətirilir. Azərbaycan dilində

şagird qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü necə nümayiş etdirməlidir? Bunun standartları nəzərdən keçirilir:

2.1.1.Rast gəldiyi yeni əşya və hadisələri müəyyən edir.

2.1.2.Öyrəndiyi yeni sözlərin mənasını izah edir.

2.1.3. Öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.

2.1.4.Yaxınmənalı və əksmənalı sözlərdən nitqində istifadə edir.

İbtidai təhsil pilləsində sinonim və antonimlər üzərində nəzəri və təcrübi işlərlə şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək baxımından Azərbaycan dili kurikulumunun təhlili bizə aşağıdakıları deməyə əsas vermişdir:

Azərbaycan dili kurikulumu üzrə təlim məqsədləri və məzmun standartlarında sinonim və antonim sözlərlə əlaqədar tələblər çox geniş məsələləri əhatə edir. Həmin məsələlər sinonim və antonimlərlə həm bilavasitə və həm də dolayısı ilə bağlı bacarıq və vərdişləri nəzərdə tutur. Bilavasitə əlaqədar olanlara bunlar daxildir:

I sinifdə şagird oxu üzrə:

a) Mətndə rast gəldiyi yeni əşya və hadisələri adlandırır – 2.1.1standartı.

b) Mətndəki müəyyən olunmuş sözləri yaxınmənalı sözlərin köməyi ilə izah edir – 2.1.2 standartı.

c) Mətndə öyrəndiyi yaxınmənalı sözləri cümlədə işlədir – 2.1.3 standartı.

II sinifdə oxu üzrə:

a) Mətndə verilmiş yaxınmənalı və əksmənalı sözləri fərqləndirir – 2.1.2 standartı.

b) Mətndəki frazeoloji ifadələrin mənasını ifadə edir – 2.1.3 standartı.

III sinifdə dil qaydaları üzrə:

Rast gəldiyi yeni sözlərin mənasını müəyyənləşdirmək üçün lüğət və sorğu kitablarından istifadə edir – 4.1.3 standartı.

IV sinifdə oxu üzrə:

a) Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir – 2.1. standartı üzrə;

Dil qaydaları üzrə:

b) Mətndəki yeni sözlərin və adların mənasını... müəyyənləşdirmək üçün lüğətdən, ensiklopediyadan istifadə edir – 4.1.3 standartı.

Dolayısı ilə əlaqədar olanlara bunlar daxildir:

a) Mətnin məzmununu daha geniş formada yaradıcı nəql edir – 2.2.5 standartı.

b) Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir – 1.1.2 standartı.

c) Verilmiş mətni genişləndirir və davam etdirir – 2.2.3 standartı.

ç) Öyrəndiyi yeni söz və terminlərin lüğətini tərtib edir – 2.1.3 standartı.

d) Öyrəndiyi yeni söz və terminləri təqdim edir – 2.1.2 standartı.

e) Dinlədiyi fikirləri əlavələri ilə inkişaf etdirir – 1.1.1 standartı.

Əlbəttə, bütün bunlar məzmun standartlarında nəzərdə tutulanların hamısı deyil. Çünki sinifdən sinfə təkrarlananlar və əsas standartda, habelə təlim məqsədlərində qeyd olunanların heç də hamısının buraya daxil edilməsi məqsədəuyğun bilinməmişdir. Digər cəhətdən, sinonim və antonimlərlə bilavasitə və bilvasitə bağlı olub, reallaşdırılması nəzərdə tutulan imkanlar dərsliklərdə daha geniş sferanı əhatə edir. Bunlara çalışmaların icra şərtlərində I sinifdən başlayaraq IV siniflər üzrə “Azərbaycan dili” dərsliklərində çox yerdə rast gəlmək olur.

Birinci fəslin üçüncü paraqrafı *“Mövzu baxımından I-IV sinif “Azərbaycan dili” dərsliklərinin təhlili”* adlanır və burada da əsasən praktik tapşırıqlar əsasında I-IV sinif “Azərbaycan dili” dərsliklərinin mövzu baxımından təhlili verilir.

I-IV sinif Azərbaycan dili kurikulumuna əsasən tərtib olunan yeni dərslikləri dinləyib-anlama, oxu, yazı və dil qaydaları məzmun xəttinə uyğun tərtib olunmuşdur ki, bu da təbiidir. Çünki dil insanlar arasında ünsiyyət vasitəsidir. Dinləmək və oxumaq bacarığı başqalarını anlamaq və onlardan məlumat almaq məqsədi daşıyır. Danışmaq və yazmaq bacarığı biliklərimizi və düşündüklərimizi başqalarına anlatmaq üçündür. Dinləmə və danışma şifahi nitqə aid olan bacarıqlardır. Hərflərlə ifadə olunmuş mətnləri isə oxuyuruq və yazırıq. Odur ki, yazı və oxu bacarıqları yazılı nitqə aid edilir.

Hər dərsdə nitq bacarıqlarından istifadə olunur. Müəllimi dinləyirik, dərsi danışırıq, kitab oxuyuruq, düşündüklərimizi yazmaqla

ifadə edirik. Azərbaycan dili dərslərində digər fənlərlə müqayisədə biz nitq bacarıqlarına daha dərindən yiyələnirik. Dil qaydaları nitqimizi ədəbi dilin normalarına uyğun qurmağa kömək edir. Beləliklə, biz sözləri düzgün yazmağı və tələffüz etməyi öyrənir, onları cümlələrdə öz mənasına uyğun işlədirik.

IV sinif ibtidai kursun son mərhələsi sayılır. Bu mərhələdə I-IV sinifdə sinonim və antonimlərlə nitq zənginliyi bazası artıb genişlənməli, nitq inkişafında, lüğət ehtiyatının artırılmasında bu iki məsələ ilə bağlı bütün təsəvvürlər aydınlaşmalıdır. Şagirdlərin cümlə qurmaq bacarığında bir inkişaf baş verməli, cümlənin mətnə çevrilmək nəticələri görünməlidir. Beləliklə, tədqiqat göstərir ki, I-IV sinif "Azərbaycan dili" dərsliklərində, eyni zamanda həmin dərsliklərə dair yazılmış metodik vəsaitlərdə lüğət ehtiyatını zənginləşdirmək məqsədi ilə sinonim və antonimlər üzrə işin məzmunu çox geniş, forma və üsulları olduqca rəngarəngdir. Dərsliklərin verdiyi didaktik imkanlar prinsip etibarilə Azərbaycan dili müəllimlərinin vəzifələrini konkretləşdirməli və onları müvafiq standartları optimal şəkildə reallaşdırmağa sövq etməlidir.

Birinci fəslin dördüncü paraqrafı *"Problemlə bağlı məktəbdə vəziyyət"* adlanır. Tədqiqat aparılan müddətdə Bakının 7, 82, 193, 160, 283 saylı məktəblərində 12 nəfər ibtidai sinif müəlliminin mövzu baxımından dərsləri müşahidə edilmiş, habelə "İlin müəllimi" müsabiqəsində iştirak etmiş 49 saylı məktəbdən Əsədova Tərminə Ağəli qızı, 240 saylı məktəbdən Qasımova Pəri Vaqif qızı, Heybətova Fidan Əzizağa qızı, 6 nömrəli məktəbdən Əhmədova Şəlalə Şükür qızı, 238 saylı məktəbdən Tağıyeva Güləbətin İbrahim qızı, 133 saylı məktəbdən Rüstəmova Təranə Mürşüd qızı, "Zəkalar" liseyindən Vəlicanova Validə Soltan qızı, "Avropa" liseyindən İsmayılova Zeynəb Heybət qızının qabaqcıl iş təcrübələri öyrənilib təhlil olunmuşdur. Tədqiqat zamanı həmin müəllimlərin iş təcrübəsini əks etdirən və daha çox "Kurikulum"və "Məktəbəqədər və ibtidai təhsil" jurnallarında dərc olunmuş məqalələrdən istifadə edilmişdir.

Bu fəslin sonuncu paraqrafı isə *"Sinonim və antonimlərlə aparılan işin taktiki məsələləri"*ni əhatə edir. Burada isə sinonim və antonimlərin tədrisi prosesində bir prinsip kimi inteqrativliyin əhəmiyyəti xüsusi olaraq aktuallaşdırılır və bundan başqa leksik

vahidlərin linqvistik xüsusiyyətləri didaktik-metodik aspektdə müqayisəli şəkildə təhlilə cəlb olunur.

Dissertasiyanın ikinci fəsli **"İbtidai sinif Azərbaycan dili dərslərində şagirdlərin lüğət ehtiyatının sinonim və antonimlərlə zənginləşdirməyin imkan və yolları"** adlanır. Burada sinonim və antonimlərin üslubi xüsusiyyətlərindən, mətn üzərində oxu və təhlil zamanı sinonim və antonimlərlə bağlı lüğət üzərində işlər, habelə qeyd edilən fikirlər rus və Azərbaycan linqvodidaktikasında mövcud metodik yolların və tövsiyələrin vasitəsi ilə öz elmi şərhini tapır[9]. Bu fəslin "*Sinonim və antonimlərin üslubi xüsusiyyətlərinin didaktik əsasları*" adlanan birinci paraqrafında nitq prosesində sinonim və antonimlərin üslubi xüsusiyyətlərinin didaktik əsaslarının ayrıca tədqaqat materialı kimi geniş şərhi verilir. Bu da onunla izah edilir ki, nitq zənginliyi yaratmağın ən geniş imkanları bədii üslubda olan oxu mətnlərində fərdi bacarıqlardan ibarətdir. Odur ki, nəzm və nəsr əsərlərində, habelə hekayə, nağıl, təmsillərdə müşahidə olunan konteksual sinonim və antonimlik daha çox müşahidə obyektinə çevrilməlidir

Qeyd edək ki, sinonim cərgədə bir ümumilik mövcuddur[10]. Lakin bu ümumilikdə eyniyyət axtarmaq lüzumsuzdur. Əgər həmin cərgəyə daxil olan sözlərin mənasında tam eyniyyət olsa idi, bunları işlətməyə ehtiyac da olmazdı. Bunu *dəniz, dərya, ümman* sözləri üzərində təhlil aparmaqla şagirdlərin müşahidələrini təşkil etmək, fikrimizcə maraqlı nəticələr verə bilər. Bütün bu deyilənlər dissertasiyada nümunələrlə izah edilir. Qeyd olunan nümunələrdə dəniz, dərya, ümman sözlərində çoxluq məna çalarları əsas götürülür. Bu baxımdan eyni cərgəyə daxil olan sinonimləri öz məna çalarlığına görə işlətmək tələbi lazım gəlir ki, bunu da üslubi xüsusiyyət kimi qəbul etmək mümkündür.

Burada antonimlərin də üslubi xüsusiyyətləri konkret nitq materialının nümunələri əsasında izah olunur.

Dissertasiyanın "*Mətnin oxusu və təhlili zamanı sinonim və antonimlərlə lüğət ehtiyatının zənginləşdirilməsi*" və "*Dil qaydalarının*

[9]Əhmədov, Ə.M. Linqvistik təhlil bacarıqları aşılanmasının elmi-metodik əsasları / Ə.M.Əhmədov. –Bakı: –1997. –50 s.
[10]Cəfərov, S. Müasir Azərbaycan dili (leksika). II hissə / S.Cəfərov. –Bakı: Şərq-Qərb, –2007. –s.27.

*tədrisi prosesində sinonim və antonimlərlə bağlı lüğət üzrə işlər"* adlı müvafiq olaraq ikinci, üçüncü paraqraflarında isə Azərbaycan metodistlərinin metodik irsinə müraciətlər edilir, nitq hissələrinin tədrisində leksik işlərin metodik səciyyəsi konkret nümunələr üzərində verilir.

I-IV siniflər üzrə "Azərbaycan dili" dərsliklərində reallaşdırılan standartlardan bir çoxu yaxınmənalı və əksmənalı sözlərlə şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək vərdişlərindən ibarətdir.

Lüğət ehtiyatının zənginləşdirilməsi dərsliklərdə çalışma modelləri sırasında geniş yer tutur. Həmin modellər içərisində dilçilik anlayışlarından sinonimlər – yaxınmənalı sözlər, antonimlər – əksmənalı sözlər təqdimat formasında verilir. Yeri gəlmişkən, metodik vəsaitlərdə göstərildiyi kimi, linqvistik qaydalar nitq vərdişlərinin inkişafına kömək edən vasitədir. Çünki dilçilik özü də inkişafda olan bir elmdir və dəqiq elmlər kimi onun da əsasları orta məktəbdə mənimsədilir. İbtidai siniflərdə dil qaydaları üzrə bir çox alt standartların digər nitq bacarıqlarının, xüsusilə oxu və yazının inkişafı üçün praktik əhəmiyyəti var. Bununla yanaşı, bu standartlar gələcəkdə dilçilik elmini daha dərindən mənimsəməyə kömək edir[11].

Azərbaycan dilində şagird qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirməlidir. Standartlar isə aşağıdakı kimidir:

2.1.1. Rast gəldiyi yeni əşya və hadisələrin adlarını müəyyən edir.

2.1.2. Öyrəndiyi yeni sözlərin mənasını izah edir.

2.1.3. Öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.

2.1.4. Yaxınmənalı və əksmənalı sözlərdən nitqində istifadə edir.

Göstərilən standartların nitq hissələrinin öyrədilməsi ilə bağlı mətnlər üzərində aparılması ikiqat əhəmiyyətlidir. Çünki belə olduqda həm oxu və həm də dil qaydaları məzmun xətlərinə dair standartların gerçəkləşdirilməsi ilə lüğət ehtiyatının zənginləşdirilməsi imkanlarından yararlanmaq mümkündür.

Dissertasiyanın **"Eksperimentin təşkili və keçirilməsi"** adlı üçüncü fəsli isə *"Müəyyənedici eksperimentlər və onların nəticələri"*, *"Öyrədici eksperimentlər və onların nəticələri"*, *"Yoxlayıcı*

[11] Azərbaycan dili (2-ci sinif): Müəllimlər üçün metodik vəsait / R.İsmayılov, G.Orucova, D.Cəfərova [və b.] –Bakı: Altun kitab, –2009. –s.12.

*eksperimentlər və onların nəticələri”* adlı üç paraqrafdan ibarətdir. Burada da müəyyənedici, öyrədici və yoxlayıcı eksperimentlər ayrıayrılıqda təşkil olunmuşdur. İbtidai siniflərdə Azərbaycan dili fənnindən şagirdlərin lüğət ehtiyatını sinonim və antonimlər üzrə iş əsasında zənginləşdirmək məqsədi ilə şəhər və kənd məktəblərində təcrübələr qoyulmuşdur. Eksperimentdə iştirak edən müəllimlərin, demək olar ki, hamısı “İlin müəllimi” müsabiqəsində iştirak etmiş təcrübəli mütəxəssislərdir.

1.Almaz İsmayılova – Bakı şəhəri 244 saylı məktəbin II və IV sinifləri;

2. Solmaz Abdullayeva – Bakı şəhər 23 saylı orta məktəbin I–IV sinifləri;

3.Rəna Quliyeva – Bakı şəhər “Zəngi” liseyinin II–III sinifləri.

4.Tərminə Əsədova- Bakı şəhər 49 saylı orta məktəbin II-III sinifləri

Eksperimental müşahidələrimiz göstərmişdir ki, ibtidai siniflərin Azərbaycan dili dərslərində tədqiqat mövzusu ilə bağlı çox geniş imkanlar mövcuddur və müəllimlərin əksəriyyəti həmin imkanlardan optimal istifadə etməyə çalışır. Dərslikdəki çalışmaların icra şərtlərinin tələbləri əksərən düzgün yerinə yetirilir. Lakin metodik vəsaitlərdə dərsliyin verdiyi imkanlara əlavələr lazımi həcmdə deyil. Habelə diaqnostik təhlillərimizə görə, müəllimlərin bir qisminin leksik vahidlər, o cümlədən sinonim və antonimlər üzrə kurikulum tələblərinə və standartlarına, interaktiv metodlardan istifadəsinə dair bilik və bacarığını yüksək qiymətləndirmək olmaz.

Dissertasiyanın üçüncü fəslində yoxlayıcı eksperimentin nəticələri də cədvəllər vasitəsilə təhlil edilmişdir.

Cavabların təhlili zamanı müəyyən olundu ki, hər iki kateqoriyadan olan sinif şagirdləri anket tapşırıqlarını əsasən müsbət yerinə yetirmişlər. Lakin eksperimental sinif şagirdlərinin cavabları nisbətən daha üstün olmuşdur.

| Məktəblər | Kontrol sinif | | | | | Eksperimental sinif | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **Şagird sayı** | **Düzgün cavab** | **Faizlə** | **Səhv cavab** | **Faizlə** | **Şagird sayı** | **Düzgün cavab** | **Faizlə** | **Səhv cavab** | **Faizlə** |
| 23 saylı məktəb | 89 | 35 | 39,3 | 54 | 60 | 88 | 49 | 55,6 | 39 | 44,3 |
| 244 saylı məktəb | 90 | 45 | 50 | 45 | 50 | 90 | 65 | 72,2 | 25 | 27,7 |
| 49 saylı məktəb | 90 | 40 | 44,4 | 50 | 55,5 | 92 | 52 | 56,5 | 40 | 43,4 |
| Zəngi liseyi | 79 | 35 | 44,3 | 44 | 55,6 | 88 | 50 | 56,8 | 38 | 43,1 |

Cədvəldən də göründüyü kimi, düzgün cavablarda fərq müvafiq olaraq 16, 22, 12% təşkil edir. Bunun səbəbi eksperimental siniflərdə lüğət üzrə işlərin daha səmərəli aparılması metodikası ilə əlaqədardır.

Eksperimental siniflərdə şagirdlər *şəhid, şahid, sağollaşmaq, nəhəng, xoşlamaq, bəyənmək* və s. kimi sözlərin sinonim və antonimlərini cümlələrdə ifadə etmişlər.

Lakin kontrol siniflərdə şagirdlərin cavablarında *şahid, şəhid, zülmət gecə, bəyənmək* və s. sözlərə sinonim və antonimlərlə cavablar dəqiq olmamışdır.

Tədqiqat zamanı şagirdlərə rabitəli mətnlərin məzmununu lüğət ehtiyatındakı sözlər əsasında cümlələr qurmaqla ifadə etmək məqsəd kimi nəzərdə tutulmuşdur. Bunun üçün belə bir eksperiment keçirməyi əsaslı hesab etdik: əvvəlcə mətnin açar sözləri müəyyən olunur, sinonim və antonimini tapmaqla həmin sözlərdən motivasiya yaradılır.

Bu eksperimenti bir çox məktəblərdə sınaqdan keçirməyə nail olduq. Nümunə kimi birini nəzərdən keçirək:

III sinifdə "Fitnə"nin tədrisi zamanı mətndəki *mahir, şücaət, öyünmək, məharət, vərdiş, quşu gözündən vurmaq, boynunu vurmaq, qəzəbli, hökm vermək, imarət, isinişmək, niyyət, eyvan, dincini alır, sərkərdə, qulluqçu, birnəfəsə, rübənd, qəribə* sözlərinin üzərində kontrol sinifdən fərqli olaraq, diaqnostik müəyyənləşmə aparılır. Bu iş seçmə yolla həyata keçirilir və məlum olur ki, şagirdlərin bəziləri

yalnız *qulluqçu, sərkərdə, qəribə və birnəfəsə* sözlərinin sinonim mənalarını göstərə bilirlər. Lakin *isinişmək, vərdiş, məharət, öyünmək, mahir, şücaət, niyyət* kimi sözlərin mənalarını söz, ifadə və cümlələrlə aça bilmirlər. Odur ki, müəllim mətni mənimsətməyin motivasiyası kimi *mahir ovçu, şücaəti ilə fəxr etmək, məharətli ovçu, gözəl vərdiş, qəzəbi tutdu, hündür bir ev, buzov isinişmişdi, dayanmadan, nəfəsini almadan, birbaşa, qəribə hadisə və s.* kimi söz və birləşmələrin şərh olunmasından istifadə edir və müsahibə keçirir:

**M.:** Uşaqlar, "şücaət" sözünün mətndəki mənası nədir?

**Ş.:** Şücaət sözünün buradakı sinonimi qabiliyyət, hünər, istedad ola bilər. Ancaq ən yaxın sinonimi bacarıq, qabiliyyətdir.

**M.:**Uşaqlar, sizcə,"artıq quşu gözündən vurmağa öyrəşmisən" nə deməkdir?

**Ş.:**Bu mətndə quşdan söhbət getmir, oxu düz atmağın vərdiş olmasından söhbət gedir. Demək istəyir ki, bu, bir vərdiş və ya öyrəşməkdir.

**M.:**"Məharət" sözünü necə izah edərsiniz?

**Ş.:**"Məharət" mahir sözündəndir. Mahir ovçu əvəzinə, məharətli ovçu da demək olar.

**M.:**"İsinişmək" sözünün sinonim və antonimi necə olur?

**Ş.:** Heyvanı əzizləyirsən, o da sənə isinişir, yəni özünü sənə yaxın hiss edir, səndən qorxmur, çəkinmir, sənə inanır. Bu sözün antonimi isə inanmır, öyrəşmir, uzaq durur, yaxın durmur, ürək eləmir və s.

**M.** Uşaqlar, siz mətndəki 10-dan artıq sözün mənalarını müxtəlif cür ifadə edə bilirsiniz, o cümlədən *qəzəblənmək, hökm vermək, sərkərdə, peşman olmaq, imarət, təpəl, rübənd, niyyət, eyvan, saldı, boynuna almaq, güclü, qəribədir, bağışladı* və s. kimi sözlərin yaxın və əks mənalarını cümlələrlə ifadə etdiniz. Bu mətnin məzmununu hərtərəfli mənimsəyəcəyinizə bir əsas vermiş olur.

Göründüyü kimi, belə bir motivasiya kontrol siniflərdə lüğət ehtiyatını artırmaq məqsədi ilə aparılmır. Keçirdiyimiz eksperimentdə sorğu vərəqləri hazırlayıb siniflərə təqdim edərək nəticələrini təhlil etdik və cavabları cədvəllərdə aşağıdakı kimi ümumiləşdirməyə çalışdıq.

| Siniflər | Cavabların sayı | Cavabların xarakteri | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Düz | Faizlə | Qeyri-dəqiq | Faizlə | Səhv | Faizlə | Cavab verməyən | Faizlə |
| **Kontrol** | 240 | 120 | 50 | 40 | 16,6 | 35 | 14,5 | 45 | 18,95 |
| **Eksperiment** | 242 | 190 | 78,5 | 20 | 8,26 | 20 | 8,26 | 12 | 4,9 |

Cədvəldə əks olunan nəticələrdən də eksperimental siniflərdə müvəffəqiyyət 28%-dən yüksək, səhv cavablar isə 50% aşağıdır ki, bu da tətbiq olunan metodik müddəanın optimallığına bir nümunədir.

Qeyd edək ki, öyrədici eksperiment zamanı mətnlərin sinonim və antonim tərkibini təhlil yolu ilə şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək metodikasını təcrübədən keçirib nəticələrini ümumiləşdirmək xüsusilə diqqətdə saxlanılmışdır. Öyrədici eksperimentdə sınaqdan keçirilən bu üsuldan yoxlayıcı eksperimentdə də istifadə edilmiş və nəticələri müqayisə olunmuşdur. IV sinif "Azərbaycan dili" dərsliyi və "Müəllim üçün metodik vəsait"də həcmcə qısa, lakin məzmunca dərin mənalı mətnlərdən bir neçəsinin əsasında aparılan təhlil-tərkib işlərinin sınaq təcrübəsi isə aşağıdakı kimi olmuşdur.

Alim və cahil" mətninə nəzər salaq.

*"Bir cahil bir alimin evinə əmanət qoyur. Bir neçə gündən sonra əmanətə ehtiyacı olur. Alimin evinə gedir. Baxıb görür ki, alim döşəkçə üstə əyləşib, qarşısında cərgə ilə uşaqlara dərs deyir.*

*Cahil:*

*– Ey ustad, əmanətə ehtiyacım var, gəlmişəm onu aparmağa.*

*Alim deyir:*

*– Gözlə, dərs qurtarsın, ondan sonra verərəm.*

*Cahil adam oturub gözləməyə başlayır. Fikir verib görür ki, uşaqlar nə isə danışır, alim isə elə hey başını yırğalayır. Elə bilir ki, dərs demək ancaq başını yırğalamaqdan ibarətdir, odur ki, deyir:*

*– Ustad, sənin əvəzinə mən başımı yırğalayım, sən get əmanəti gətir, tələsirəm.*

*Alim cahilin nəyə işarə elədiyini anlayır. Gülür və deyir:*

*– Məsələ ancaq baş yırğalamaqda deyil, gərək başın içində də bir şey olsun.*

*Cahil sözlərindən utanıb daha danışmır. Dərsin axırınadək dinməz-söyləməz gözləyir”*[12] .

Mətnin leksik tərkibini kontrol və eksperimental siniflərdə araşdırmaqla şagirdlərin sinonim və antonimlərdən istifadə bacarığına qiymət verməli olduq. Eksperimental siniflərin cavablarının təhlili:

1. Mətndən seçdiyimiz sözlərin müvafiq sinonim qarşılığını yazıb göstərin:

alim – elmli, bilikli, hər şeydən baş çıxaran, öz biliyini başqalarına da öyrədən şəxs cahil – elmi, biliyi, öz fikri olmayan insan əmanət – başqasının yanında qoyulan qiymətli bir şey, məsələn, qızıl, pul və yaxud da tapılmış bir dilək ehtiyac – çatışmazlıq, çatmayan bir şey, çatmayan pul, mal, qızıl; məsələn, adamın taxıldan, ətdən, yağdan, puldan çatışmazlığı onun ehtiyacı sayılır yırğalayır – tərpədir, yelləyir tələsirəm – vaxtım yoxdur, gözləyə bilmirəm başın içində bir şey olsun – adam gərək bilikli olsun, yaxşı və ya dərindən düşünməyi bacarsın axırınadək – sonunadək dinməz-söyləməz – səssiz, sakit, daha danışmayaraq

2. Mətndən seçdiyimiz sözlərin antonimlərini göstərin:

alim – biliksiz, cahil, dərindən düşünə bilməyən, boş-boş mübahisələr edən, dinləməyi bacarmayan şəxs etibarlı adam – xəyanətkar, inam bəslənilməyən

ehtiyacı olmaq – hər şeyi olan, heç bir çatışmazlığı olmayan

yırğalayır – tərpətmir, sakitcə durur, hərəkət etmir

tələsirəm – vaxtım var, heç yerə getmək istəmirəm

axıradək – əvvəldən, qabaqcadan, başdan, siftədən

dinməz-söyləməz – haylı-küylü, səs salan, ucadan danışan və s.

Şagirdlərin yazılı cavablarının təhlili bunları söyləməyə əsas verir:

1) Kontrol siniflərdə belə üsuldan istifadə olunmadığına görə, şagirdlərin cavablarında düzgünlük az, qeyri-dəqiqlik isə çoxdur.

---

[12] İsmayılov, R. Azərbaycan dili (4-cü sinif). Müəllimlər üçün metodik vəsait. /R.İsmayılov, S.Abdullayeva, X.Qasımova –Bakı: Altun kitab, –2011. –240 s.

2) Eksperimental siniflərdə şagirdlər 15 sözün sinonimini, 15 sözün antonimini yaza bilmişlər. 10 kontrol, 10 eksperimental sinifdə 300-ə yaxın təhlil işləri araşdırılmış və müvafiq nəticələr çıxarılmışdır. Cavablar aşağıdakı cədvəldə əksini tapmışdır:

| **Siniflər** | **Şagirdlərin sayı** | **Eksperimentin xarakteri** | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | **Düz** | **faizlə** | **səhv** | **faizlə** | **qeyri-dəqiq** | **faizlə** |
| **Kontrol** | 300 | 170 | 56,6% | 108 | 36,4% | 22 | 7,3% |
| **Eksperimental** | 302 | 212 | 70% | 80 | 26,4% | 10 | 3,31% |

Eksperiment göstərir ki, siniflərarası keyfiyyət göstəricisi kontrol siniflərdə 56,6% təşkil edirsə, bu göstərici eksperimental siniflərdə 70%-dən yuxarıdır. Əlbəttə, fərqin 16%-dən yüksək olması yaxşı göstəricidir.

Eksperimental tədqiqata əsaslanaraq onu demək olar ki, sinonim və antonimlərlə bağlı leksik-üslubi bacarıqlar aşılamağın ən optimal yolu məzmunun oxunması, təhlili, imla, ifadə və inşa bacarıqları, lüğətlərin tərtibi və təhlili üzrə işlərlə əlaqədardır. Müəllimlərimizin fəaliyyətinə bu göstərilənlər daxil edilmiş olsa, şagirdlərin lüğət ehtiyatını nəinki sözlər və ifadələrlə, hətta cümlələrlə zənginləşdirmək belə mümkündür.

Göründüyü kimi, lüğət ehtiyatının zənginləşdirilməsi imkanları Azərbaycan dilindən bütün məzmun xətlərinin (dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları) icra şərtləri üzrə reallaşdırılan standartların içərisindən bir qırmızı xətlə keçir. Odur ki, müəllimin işində nitq və təfəkkür inkişafını doğuran bu sahə həmişə öz aktuallığını saxlamalıdır.

I-IV siniflər üzrə “Azərbaycan dili” dərsliklərində imla, ifadə və inşa məqsədi ilə nəzərdə tutulan mətnlərin leksik təhlili ilə lüğət ehtiyatının zənginləşdirilməsi imkanları diqqəti cəlb edir. IV sinif “Azərbaycan dili” dərsliyinə yazılmış metodik vəsaitdə belə imkanlara daha da geniş yer verilmişdir[13]. Bu vəsaitdə “Qız qalası”, “Demokratiya nədir?”, “İlan zəhəri”, “Dünyanın möcüzələri”, “Leyləklər harada yatır?”, “Mirvarilər”, “Badam”, “Vətən sevgisi” və s. kimi hekayələrdə

[13] İsmayılov, R. Azərbaycan dili (4-cü sinif). Müəllimlər üçün metodik vəsait. /R.İsmayılov, S.Abdullayeva, X.Qasımova –Bakı: Altun kitab, –2011. –240 s.

mənası müxtəlif tərəflərdən (yaxın və əks) izah olunmalı məqamlar çoxdur.

Nəticələrin təhlili göstərdi ki, eksperimental siniflərdə tətbiq edilən sistem materialın şüurlu mənimsənilməsinə imkan yaratmışdır. Bununla belə, bu sahədə işi sərbəst imlalarla məhdudlaşdırmaq olmaz.

Sərbəst imlaların lüğət ehtiyatının artırılması ilə bağlı verdiyi imkanlardan istifadə üsulu digər inteqrasiyaedici üsullarla da təkmilləşdirilə bilər. Bunlardan mətndəki mənasının şərh olunması zəruri sayılan sözlər əsasında şifahi və yazılı inşaların keçirilməsi həm nəzəri və həm də təcrübi cəhətdən əhəmiyyətlidir.

Yoxlayıcı eksperimentə qoyduğumuz fərziyyələrdən biri və bizə görə ən əhəmiyyətlisi ifadə mətnlərinin inşalara çevrilməsi yoludur. Bu, nə deməkdir? Kontrol siniflərdə rabitəli mətnlərə heç nə əlavə olunmur. Eksperimental siniflərdə rabitəli mətnin nəticəsinə əlavələr də edilir. Bu da şagirdlərin süjetə əlavələr etməklə yeni cümlələr qurmaq vərdişlərinin inkişafına səbəb olur.

Məktəblərdə bu üsulu 10-dan artıq rabitəli mətn üzərində sınaqdan keçirdik və nəticələrinin təhlilini verdik. Məlum oldu ki, ifadə mətninin məzmununa əlavələrdə də şagirdlər sinonim və antonim cümlələrdən istifadə edə bilərlər. Seçdiyimiz mətnlər bunlar olmuşdur: “İki dost”, “Odunçunun səhvi”, “Qırmızıpapaq”, “Cığal sərçə”, “Zarafat” (II sinifdə); “Qartalın təşəkkürü”, “Qazanın ölməyi”, “Müəllimdən hədiyyə” (III sinifdə), “Hər şey sənin əlindədir”, “Alma ağacı” vəs.

Bu iş məzmun üzrə təhlil və müşahidə yolu ilə aparılır. Müəllimin yardımçı sualları ilə tədris olunur. Hər bir şagird öz əlavələri əsasında çıxış edir və ifadə mətnini tamamlayır. Əlavələrin müxtəlif cür olmasında sinonim və antonim cümlələrdən istifadə olunur. Bunu biz eksperimentin və ümumilikdə bu tədqiqatın uğuru kimi qiymətləndirir və geniş yayılmasını təklif edirik.

Tədqiqat işinin **“Nəticə”** hissəsində tədqiqat zamanı əldə olunmuş elmi qənaətlər aşağıdakı formada ümumiləşdirilərək qruplaşdırılmışdır:

İbtidai siniflərin Azərbaycan dili dərslərində şagirdlərin nitqini, lüğət ehtiyatını kəmiyyət və keyfiyyətcə artırmaq hesabına zənginləşdirmək, həmin prosesdə onların təfəkkürünü və dünyagörüşünü genişləndirmək müasir fənn kurikulum təliminin əsas

tələblərindən hesab olunur. Nitq, təfəkkür və dünyagörüşü üç didaktik istiqamət kimi məzmun xətləri üzrə standartların reallaşdırılması şəbəkəsinə daxildir və bu göstərilənlər, təbii ki, lüğət üzrə işlərdən başlayır.

I-IV siniflərdə Azərbaycan dili dərslərində reallaşdırılan standartların əksəriyyəti bu problemlə bilavasitə əlaqədardır və həmin standartlar dərsliklərə dair yazılmış metodik göstərişlərdə müəllimlərin də vəzifələrini konkretləşdirir. Sinonim və antonimlərin didaktik imkanlarından səmərəli istifadə üzrə məktəb təcrübəsində vəziyyəti öyrənmək və ona yeni istiqamətlər vermək məqsədilə aparılan eksperimental tədqiqatın nəticələri bunları söyləməyə əsas verir:

I-IV siniflərdə Azərbaycan dili kurikulumunun tələbləri, məzmun standartlarının reallaşdırılması baxımından dərsliklərin didaktik imkanları, habelə metodik vəsaitlərin diqqətlə öyrənilməsi ilə çıxarılan müvafiq nəticələrdən məlum olmuşdur ki, sinonim və antonimlər üzrə reallaşdırılacaq standartlar nəinki yalnız dil qaydaları üzrə leksik vahidlərin tədrisi əhatəsindən, hətta digər məzmun xətlərinin əhatə etdiyi məsələlərdən də kənara çıxan didaktik imkanları, nitq və təfəkkür inkişafını qarşılıqlı şəkildə əks etdirən linqvodidaktikadır.

Problemin linqvistik və didaktik əsaslarını daha geniş dairədə hazırlamaq, habelə innovativ forma və məzmun istiqamətlərini meydana çıxarmaqla Azərbaycan dilinin tədrisi metodikasını təkmilləşdirmək imkanları var. Həmin imkanları ümumiləşdirib nəticə kimi əsasən aşağıdakıları qeyd etmək olar:

1) Azərbaycan dili təlimində sinonim və antonimlərlə bağlı dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları məzmun xətləri üzrə dərsliklərdə öz əksini tapmış sözlüklərin, habelə "düşün tap", "mənasını izah et", "düzgün olanını tap", "aydınlaşdır", "əvəz et" və "suallara cavab ver" tipli çalışmaların, eyni zamanda nəzəri məlumatların verdiyi imkanların səmərəli təşkili geniş şəbəkə təşkil edir.

2) Dərsliklərdə (I-IV siniflər üzrə Azərbaycan dili) eyni və yaxın-mənalı, habelə əksmənalı adlanan sözlərin – sinonim və antonimlərin üslubi imkanlarının geniş və zəngin olması tədqiqatla meydana çıxarılmış və nəzəri cəhətdən əsaslandırılmaq və təcrübi cəhətdən

əhəmiyyəti sübut olunmaqla metodik linqvometodik sistemə daxil edilmişdir.

3) Tədqiqat işində eyni və yaxınmənalı sözlərin mövcud didaktik prinsiplərinə yeni münasibət də formalaşdırılmışdır ki, bu da dilçilik ədəbiyyatında və dərsliklərdə həmin mövzunun təsnifat-bölgü kriteriyalarına aydınlıq gətirmişdi. Belə ki, eyni mənanı ifadə edən sözlər; yaxın mənanı ifadə edən sözlərin sinonim sayılması; əks mənanı ifadə edən ayrı-ayrı sözlərin antonim sayılması; bir-biri ilə əks olan və birlikdə yarımvurğu ilə işlənən leksik vahidlərin antonim yox, bir-birinə ziddiyyət təşkil edən söz sayılması, mütləq və nisbi mənalarda sinonim və antonimlərin üslubi xüsusiyyətlərinin, habelə onların təlimində mətn amilinin nəzərə alınması tədqiqatın linqvistik əsasları olmaqla üslubididaktik xüsusiyyətlərini təşkil edir.

4) Sinonim və antonimlərin nitq və təfəkkürü inkişaf etdirməklə bağlı didaktik imkanları söz, ifadə (söz birləşməsi), cümlənin mənasının müxtəlif cür ifadə olunması; eyni zamanda leksik, morfoloji və sintaktik vahidlərin tədrisində lüğət ehtiyatı üzrə işlərin sferasının genişləndirilməsi bu mövzunun linqvodidaktik imkanlarından xəbər verir, eyni zamanda rabitəsiz və rabitəli nitqin inkişafı (RNİ) üzrə aparılan işlərə, hətta savad (imla) dərslərini belə əhatə edən (birinci sinifdən başlayaraq nəzəri məlumata qədər ta mətn sintaksisinin məzmunu üzrə) işlərlə sinonimika təliminin aparıcı qüvvəsinə çevrilir.

5) Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi sinonim və antonimlərin tədrisinin praktik aspektini təşkil edir. Lakin məsələyə birtərəfli yanaşmağı məqbul saymaq olmaz. Belə ki, tədqiqatda lüğət ehtiyatı üzrə işlər nəzəri məlumatlardan qabaq başlasa da, nəzəri məlumatın da praktik yollarla rəngarəng didaktik çalışma növlərindən istifadə olunmasına geniş yer verilməsi məqbul sayılmışdır. Habelə öyrədici eksperimentlərlə metodik fərziyyələrin yoxlanılmasında mövzu ilə bağlı standartların reallaşdırılmasında şifahi və yazılı iş növlərindən istifadə olunmuşdur.

6) Sinonimlər və antonimlər lüğətlərin tərtibi ilə şagirdlərdə nitq zənginliyinin səviyyələrinin ölçülməsi və buradan da metodik sistemin keyfiyyətcə qiymətləndirilməsi tədqiqatda diqqət yetirilən başlıca kriteriyalardan olmuşdur.

Bundan başqa yoxlayıcı eksperimentlərin şifahi və yazılı rabitəli mətnlər qurmaq yolu ilə aparılması da konkret olaraq aşağıdakı müddəaları söyləməyə əsas vermişdir:

1. Azərbaycan dili dərslərində sinonim və antonimlərlə bağlı işləri yalnız dil qaydaları məzmun xəttinə dair imkanlardan ibarət hesab etmək olmaz, çünki bu işin daha yeni və geniş imkanlarını oxu məzmun xətti üzrə standartların reallaşdırılmasında həyata keçirmək mümkündür. Rabitəli mətnin məzmununa dair sual-cavablar sinonim və antonim söz, ifadə və cümlələrdən istifadəni zəruri etmiş olur. Bünün bunlar da şagirdlərin nitqinin inkişafında mühüm mərhələ təşkil edir.

2. Rabitəli mətnlərin üzərində lüğət tərkibi üzrə işlər şagirdlərin yaradıcı təfəkkürünə müsbət təsir göstərir.

3. Nitq hissələrinin tədrisində sinonim və antonimlər axtarışı və yarışları şagirdlərin təlim və dərketmə fəallığını yüksəldir.

4. Sinonim və antonimlərdən istifadə ilə sözlərin mənalarına şərhlər vermək lüğət ehtiyatı zənginliyində qiymətli mərhələyə çevrilir.

5. Rabitəli mətnlərin üzərində sinonim və antonimlərə görə aparılan təhlillər məzmunun daha yaxşı anlaşılması, dərk olunması və şüurlu şəkildə mənimsənilməsini təmin edir.

Dissertasiyanın əsas məzmunu və elmi müddəaları iddiaçının aşağıdakı çap olunmuş məqalə, tezis və konfrans materiallarında öz əksini tapmışdır:

1. Sinonimlər üzrə aparılan metodik işlər lüğət ehtiyyatını zənginləşdirmək vasitəsi kimi // –Bakı: Bakı Slavyan Universiteti Elmi əsərləri, –2013.№ 2, –s.49-52.

2. Söz üzərində sinonimik iş nitq zənginliyi yaratmaq vasitəsi kimi. Bakı Qızlar Universiteti. Elmi əsərlər. 2014, №2. s.62-67.

3. Leksik vahidlərlə nitqi zənginləşdirmək üzrə inteqrativ nəticələr. Bədən Tərbiyəsi və İdman Akademiyasının Elmi Xəbərləri, 2015, №2, s.110-114.

4. Sinonim və antonim sözlərlə nitqi zənginləşdirmək yolları // –Bakı: Azərbaycan Müəllimlər İnstitutu, Xəbərlər, Elmi metodik jurnal, –2015. № 1, –s.190-192.

5. Leksik vahidlərlə nitqi zənginləşdirmək üçün inteqrativ nəticələr // –Bakı: Azərbaycan dili və ədəbiyyatı tədrisi, –2015. № 3, –s.48-52.

6. Работа с синонимами как средства пополнения словарного запаса школьников // –Вектор Науки, Тольяттинского Государственного Университета, –2015. № 1, –с. 84-86.

7. Şagirdin lüğət ehtiyatını necə zənginləşdirməli // Doktorantların və Gənc tədqiqatçıların XX respublika elmi konfransı, –Bakı: –2016,–s.349-351.

8. Leksik işlərə dair kurikulum tələbləri və gözlənilən nəticələr // Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş "Təhsildə pedaqoji yanaşmalar: keçmişin təcrübəsi və gələcəyə baxış" mövzusunda Ümumrespublika elmi praktik konfransı, –Bakı: 4–5may, –2016, –s.173-175.

9. İbtidai siniflərdə dil təlimi üzrə məşğələlərdə yaxın və əksmənalı sözlər üzərində işlərə dair tezislər // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Təbiət və humanitar elm sahələrinin inkişafı problemləri" mövzusunda Respublika Elmi Konfransı, –Bakı: 5–6 may, –2017, –s.59-60.

10. К вопросу о Теоретических роблемах синонимов и антонимов приобучении Азербайджанскому языку // Теоретические и Методологические проблемы современного образования, XXXIII Международная научно-практическая конференция. Институт стратегических исследований, 29-30 июня, –2017, –с.10-11.

11. Роль синонимов в обогащении словарного запаса учащихся младших классов на уроках Азербайджанского языка // – Серія «Педагогічні науки». Випуск. Черкаського національного університету імені Богдана Хмельницького, –2019. № 3, – с. 68-73.

Dissertasiyanın müdafiəsi 15 dekabr 2023-cü il tarixdə saat 14:00

Azərbaycan Dövlət Pedaqoji Universitetin nəzdində fəaliyyət göstərən FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı ş., Ü.Hacıbəyli 68, AZ 1000

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 14 noyabr 2023-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.11.2023
Kağızın formatı: A 5
Həcm: 41764
Tiraj: 100